# Parlamentlərarası İttifaqın nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib



**Fevralın 1-də ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun başçılıq etdiyi nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Parlamentlərarası İttifaqda nümayəndə heyətinin üzvü Soltan Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 2 fevral, № 22.- S.4.